**Akademik Tarih ve Düşünce Dergisi**

**Published by** **Autumn 2022 / 9-3**

https://dergipark.org.tr/tr/pub/atdd https://doi.org/10.46868/atdd.261

# 1964-cü il Kipr Böhranı və Conson Məktubu

**Sabina Aliyeva***

**ORCID: 0000-0001-5295-7873**

**Xülasə**

Məqalədə 1963-1964-cü illərdə Kiprdə yerli türklərə qarşı kiprli yunanlar tərəfindən törədilmiş cinayətlərin qarşısını almaq və öz soydaşlarını xilas etmək üçün Türkiyə hökumətinin adaya müdaxilə etmək haqqında verdiyi qərar və bu qərara ABŞ hökumətinin münasibəti tədqiq edilmişdir. Eyni zamanda Türkiyə-ABŞ münasibətlərində uzun müddət gərginlik səbəbi olmuş, Conson məktubu kimi tanınmış Türkiyə hökumətinə qarşı ABŞ hökumətinin ünvanladığı ultimativ, təhdid səciyyəli məktub və onun nəticələri araşdırılmışdır. Tədqiqat zamanı o dövrdə ABŞ, Türkiyə və Yunanıstanın hökumət nümayəndələri arasında rəsmi yazışmalar, rəsmi səlahiyyətli şəxslər tərəfindən aparılmış danışıqlar təhlil edilmişdir. Aparılan tədqiqatın nəticəsində Kipr adasının Türkiyə və Yunanıstanla yanaşı qərb üçün, xüsusilə də ABŞ və Birləşmiş Krallıq üçün əhəmiyyətini, problemin həlli istiqamətində tərəflərin səylərini təhlil etmək mümkün olmuşdur. ABŞ və Birləşmiş Krallıq Kipr probleminin NATO sərhədlərindən kənara çıxmamasına, xüsusilə də SSRİ-nin məsələyə müdaxilə etməsinin hər vəchlə qarşısını almağa çalışırdı. ABŞ-ın Kipr probleminə baxışı II Dünya müharibəsindən sonra izlədiyi qlobal strategiya çərçivəsində kapitalizm ilə kommunizm arasındakı qlobal qarşıdurma ilə bağlı idi. Problemin Türkiyə və ya Yunanıstanın xeyrinə həll edilməsindən asılı olmayaraq, iki NATO müttəfiqi arasında danışıqlar yolu ilə həll edilməsi qərbin əsas prioriteti idi.

**Açar sözlər:** 1964-cü il Kipr böhranı, Türkiyə, Yunanıstan, ABŞ, Conson məktubu, NATO

**Gönderme Tarihi: 18/07/2022** **Kabul Tarihi:20/09/2022**

---

**Baş Müəllim,* *Bakı Slavyan Universitetinin Humanitar və Sosial Siyasət Bilimi, Bakı-Azərbaycan, aliyevasabina23@ymail.com*

***Bu makaleyi şu şekilde kaynak gösterebilirsini***

ALİYEVA, S., “1964-cü il Kipr böhranı və Conson məktubu”, *Akademik Tarih ve Düşünce Dergisi,* C. 9, S. 3, 2022, s. 1161-1180.

# The Cyprus Crisis of 1964 and Johnson's letter

**Sabina Aliyeva***
**ORCID: 0000-0001-5295-7873**

**Abstract**

The article examines the decision of the Turkish government to invade the island in order to prevent crimes committed by Greek Cypriots against local Turks in Cyprus in 1963-1964 and rescue compatriots and the attitude of the US government to this decision. At the same time, an ultimatum, a threatening letter from the American government, known as the Johnson letter, addressed to the Turkish government, which has long been the cause of tension in Turkish-American relations, and its consequences were studied. The study analyzed official correspondence between government representatives of the United States, Turkey and Greece at that time, as well as negotiations conducted by official authorities. As a result of the conducted research, it was possible to analyze the importance of the island of Cyprus for the West, along with Turkey and Greece, in particular, for the United States and the United Kingdom, as well as the efforts of the parties to solve the problem. The United States and Great Britain tried in every possible way to prevent the Cyprus problem from going beyond the borders of NATO and, in particular, interference in the USSR. The US view of the Cyprus problem was connected with the global confrontation between capitalism and communism within the framework of the global strategy that they adhered to after World War II. Solving the problem through negotiations between the two NATO allies, whether in favor of Turkey or Greece, was the main priority of the West.

**Keywords:** Cyprus crisis of 1964, Turkey, Greece, USA, Johnson's letter, NATO

**Received Date: 18/07/2022** **Accepted Date: 20/09/2022**

**Senior Lecturer, Humanitarian and Social Policy Science of Baku Slavic University, Baku-Azerbaijan, aliyevasabina23@ymail.com*

***You can refer to this article as follows:***
ALİYEVA, S., "1964-cü il Kipr böhranı və Conson məktubu", *AcademicJournal of History and Idea,*Vol. 9, Issue3, 2022, p. 1161-1180.

# Кипрский кризис 1964 года и письмо Джонсона

Сабина Алиева*
ORCID: 0000-0001-5295-7873

**Резюме**

В статье изучается решение правительства Турции о вторжении на остров с целью предотвращения преступлений, совершенных греками-киприотами против местных турок на Кипре в 1963-1964 годах и спасения своих соотечественников, а также отношение правительства США к этому решению. В то же время были изучены ультимативное, угрожающее письмо американского правительства, известное как письмо Джонсона, адресованное турецкому правительству, которое долгое время было причиной напряженности в турецко-американских отношениях, и его последствия. В ходе исследования была проанализирована официальная переписка между правительственными представителями США, Турции и Греции в тот период, а также переговоры, проводимые официальными должностными лицами. В результате проведенного исследования удалось проанализировать значение острова Кипр для Запада наряду с Турцией и Грецией, в частности, для США и Соединенного Королевства, а также усилия сторон по решению проблемы. США и Великобритания всячески пытались предотвратить выход кипрской проблемы за пределы границ НАТО и, в частности, вмешательство в дело СССР. Взгляд США на кипрскую проблему был связан с глобальным противостоянием капитализма и коммунизма в рамках глобальной стратегии, которой они придерживались после Второй мировой войны. Решение проблемы путем переговоров между двумя союзниками по НАТО, будь то в пользу Турции или Греции, было главным приоритетом Запада.

**Ключевые слова:** Кипрский кризис 1964 года, Турция, Греция, США, письмо Джонсона, НАТО

**Получено: 18/07/2022** **Принято: 20/09/2022**

---

**Старший преподаватель кафедры гуманитарной и социальной политики Бакинского Славянского Университета, Баку-Азербайджан, aliyevasabina23@ymail.com*

***Ссылка на статью:***
ALİYEVA, S., “1964-cü il Kipr böhranı və Conson məktubu”, *академическая история и мысль*, T.9, NO.3, 2022, c. 1161-1180.

## Giriş

XX əsrin I yarısında dövlətlərin nüfuz uğrunda apardıqları rəqabət və hegemonluq mübarizəsi nəticəsində tarixin 2 böyük müharibəsi baş verdi. Xüsusilə Avropa dövlətləri üçün fəlakətlə nəticələnən II dünya müharibəsindən sonra Avropa dövlətləri artıq bir-biri ilə mübarizə aparmaq gücünü itirdilər. Dünya siyasətində Avropa dövlətlərinin hegemon olduğu dövr bitdi, Avropanın şərqində və qərbində yeni fövqəl güclər tərəfindən beynəlxalq hegemonluq uğrunda mübarizə başladı. Kapitalist dünyasının lideri ABŞ və sosialist dünyasının lideri SSRİ arasında gedən siyasi, iqtisadi, hərbi, ideoloji, mədəni və s. rəqabət iki qütblü dünya sisteminin formalaşması və beynəlxalq siyasətdə "soyuq müharibə" şəraitinin meydana gəlməsi ilə nəticələndi. Avropa dövlətlərinin əvvəlki qüdrətlərini itirmələri səbəbindən "beynəlxalq kommunizm" təhdidinin qarşısını almaq vəzifəsini yalnız ABŞ öz üzərinə götürə bildi.

SSRİ-nin II dünya müharibəsi dövründə Şərqi Avropanın bir qismini ələ keçirərək beynəlxalq arenada fövqəl dövlətə çevrilməsi müharibədən sonra dünyanın ən güclü dövləti olan ABŞ-ın öz xarici siyasətində radikal dəyişikliklər etməsinə səbəb oldu. ABŞ ənənəvi siyasətindən uzaqlaşaraq üzərinə dünya miqyasında öhdəliklər götürməyi qərarlaşdırdı. Beləliklə, ABŞ-ın beynəlxalq proseslərin təsiri ilə 1940-cı illərin sonu və 1950-ci illərdə inkişaf etdirdiyi qlobal strategiyanın başlıca məqsədi SSRİ-nin və onun Şərqi Avropa və Asiyadakı müttəfiqlərinin hərbi hücuma başlamasının qarşısını almaq idi. Yəni bu strategiya yeni dünya müharibəsinin baş vermə ehtimalının, kommunizm təhdidinin qarşısını almaq məqsədilə ABŞ-ın öz müttəfiqləri, ittifaqları və silahlı qüvvələri ilə çəkindirmə siyasətinə söykənirdi. Bu siyasət çərçivəsində atılan ilk addımlardan biri Türkiyə və Yunanıstana yardım edilməsini nəzərdə tutan 1947-ci ildə elan edilmiş Trumen Doktrinası oldu. NATO daxilində müttəfiq olan Türkiyə və Yunanıstan arasında gərginlik obyekti olan Kipr problemini də ABŞ qlobal strategiya çərçivəsində kapitalizm ilə kommunizm arasındakı qlobal qarşıdurmanın əhəmiyyətli hissəsi kimi görürdü. Kipr ABŞ-ın "çəkindirmə siyasəti" baxımından da əhəmiyyətli idi. İlk növbədə, Kipr problemi çəkindirmə siyasətinin aparıcı təşkilatı olan NATO-nun cənub-şərq qanadındakı iki ölkəni qarşıdurma vəziyyətinə gətirərək ittifaqın gücünü və sabitliyini təhdid edirdi. Digər tərəfdən isə Kiprdəki nüfuzlu siyasi aktorlar olan Makariosun və AKEL-in SSRİ ilə yaxın əlaqələr qurması kommunizmin Şərqi Aralıq dənizi regionunda baza yaratmaq təhlükəsini gündəmdə saxlayırdı.

### 1-Kipr məsələsi ABŞ-ın qlobal strategiyasının bir hissəsi kimi

ABŞ-ın Kipr probleminə yanaşmasını daha düzgün anlaya bilmək üçün adanın yerləşdiyi Orta Şərq regionunda ABŞ və SSRİ arasında nüfuz uğrunda mübarizəyə diqqət yetirmək vacibdir. İki əks qütbün rəqabətinin nəticəsi olan Soyuq müharibə Avropanın nüfuz dairələrinə bölünməsi, Orta Şərq və digər bölgələrdə üstünlük əldə edilməsi məqsədilə ABŞ və SSRİ arasında şiddətli mübarizə, sürətli silahlanma yarışı ilə müşaiyət olunurdu. Hər iki tərəfin milli maraqları və strateji dəyərləri, Orta Şərq coğrafiyasının özünəməxsus xüsusiyyətləri, əlverişli strateji mövqeyi, Qərbi Avropa, Yaponiya və ABŞ-ın da müəyyən qədər asılı olduğu böyük neft ehtiyatlarına sahib olması onu ABŞ-SSRİ arasında hərbi və diplomatik rəqabətin mərkəzinə çevririrdi. O dövrdə Orta Şərq dünyanın neft ehtiyatlarının 64%-inə sahib idi.[1] Bu dövrdə həmçinin ABŞ-SSRİ arasında II Dünya müharibəsindən sonra əvvəlki gücünü itirmiş qərbin əsas müstəmləkəçi dövlətləri olan İngiltərə və Fransanın bölgədə rəqabət aparmaq qabiliyyətində olmamaları və Orta Şərqdən çıxmaları nəticəsində bölgədə yaranmış boşluğu doldurma uğrunda mübarizə də gedirdi.

1949-cu ildə NATO-nun yaradılmasından sonra ANZUS (Avstraliya, Yeni Zellandiya, ABŞ-ın müdafiə Paktı), SEATO (Cənub-şərqi Asiya Müqaviləsi Təşkilatı), Bağdad Paktı (1959-cu ildən sonra CENTO) kimi ittifaqlar və dövlətlərlə imzalanan ikitərəfli sazişlər sayəsində çəkindirmə siyasəti istiqamətində əhəmiyyətli addımlar atıldı. Trumen doktrinasının elan edilməsindən etibarən ABŞ-ın Şərqi Aralıq dənizi regionunda siyasətinin başlıca məqsədi SSRİ-ni bu regionun hüdudlarından kənarda qoymaq idi. ABŞ hakimiyyətinin fikrincə, Kipr Atlantik Alyansın məsələsi idi.

Kipr əslində SSRİ üçün sırf coğrafi anlamda əhəmiyyətli deyildi. SSRİ yerli qüvvələr balansında maraqlı olmaqla yanaşı, soyuq müharibə şərtləri baxımından qlobal rəqabət və ABŞ-ın Aralıq dənizindəki fəaliyyəti ilə də maraqlanırdı. Kipr problemi SSRİ-yə Türkiyə və Yunanıstan arasındakı mübahisədən yararlanaraq NATO daxilində ziddiyyəti daha da artırmaq və çəkindirmə siyasətinin təsirini azaltmaq imkanı verirdi. SSRİ-nin Kipr siyasəti Şərqi Aralıq dənizi və Orta Şərq regionunda Birləşmiş Krallığın və ABŞ-ın nüfuzunu zəiflədəcək hər bir hərəkəti dəstəkləməyi ehtiva edirdi.

1950-ci illərin II yarısından Türkiyə-Yunanıstan münasibətlərinin getdikcə pisləşməyə başlaması və Yunanıstanın Enosis siyasəti üçün ABŞ-ın dəstəyini hər vəchlə qazanmağa çalışmasına baxmayaraq, ABŞ bu dövrdə problemə bitərəf qalaraq qarışmamaq siyasəti

[1] Stephen E. Ambrose, *Dünyaya Açılım: 1938'den Günümüze Amerikan Dış Politikası*, (çev. Ruhican Tul), Dış Politika Enstitüsü Yayınları, Ankara 1992, s. 135.

həyata keçirir, problemi passiv şəkildə kənardan izləməyə üstünlük verirdi. Kipr İngiltərənin müstəmləkəsi olduğundan ABŞ problemi əsasən İngiltərənin öhdəliyi altında dəyərləndirir, İngiltərənin yardım çağırışlarına NATO müttəfiqləri arasında əməkdaşlığın zəruriliyini vurğulayan, danışıqların aparılmasını tələb edən və zərurət olduqda müvafiq yardımlar göstərəcəyini bəyan edən mesajlarla cavab verirdi.[2]

ABŞ problemin 3 NATO müttəfiqi (İngiltərə, Türkiyə və Yunanıstan) arasında böhrana çevrilməməsində, NATO-nun cənub-şərq qanadının sabitliyində maraqlı idi. ABŞ üçün problemin necə həll edilməsi çox da əhəmiyyətli deyildi, onun əsas məqsədi hər hansı bir razılığın əldə edilməsi idi, bu səbəbdən problemin həll yolu olaraq nə Yunanıstanın Enosis tələbinə, nə də Türkiyənin Taksim tələbinə etiraz etmirdi.[3] ABŞ problemin həlli üçün İngiltərənin təklif etdiyi bütün planları demək olar ki, dəstəkləyirdi. Əsas o idi ki, problemin həll ediləcəyi platforma BMT olmasın. Çünki Kipr probleminin BMT-nin gündəminə çıxarılması müzakirələrdə SSRİ-nin də iştirak etməsi demək idi və bu da SSRİ-yə məsələni qərbin əleyhinə istismar etmək imkanı verə bilərdi.

ABŞ problemin BMT-də açıq diplomatiya ilə deyil, NATO daxilində gizli şəkildə diplomatik həllinin zəruriliyini müdafiə edir, tərəflərə bu məqsədlə təsir göstərirdi. Hətta xarici mətbuatda 1954-cü ildə Yunanıstanın BMT-yə problemin həlli ilə bağlı müraciətinin rədd edilməsinin ABŞ-ın bu müraciətin əleyhinə olması ilə əlaqəli olduğu yazılmışdı.[4] Yunanıstanın 1955, 1957 və 1958-ci illərdə BMT-yə Kiprə öz müqəddəratını təyin etmə prinsipinin tətbiq edilməsi ilə bağlı digər müraciətlər zamanı da ABŞ İngiltərə ilə birlikdə problemin BMT-də həll edilməməsinə çalışırdı.[5]

1957-ci ilin martında NATO baş katibi (1952-1957) Lord Hastinqs Layonel İsmeyin vasitəçiliyi ilə danışıqların aparılması təklifi irəli sürülmüşdür. Daha sonra dekabr ayında NATO-nun yeni baş katibi (1957-1961) Pol-Anri Spaakın sədrliyi ilə danışıqlar keçirilsə də, İngiltərə, Türkiyə və Yunanıstan baş nazirləri bu danışıqlarda heç bir razılıq əldə edə bilmədilər. 1958-ci ilin sentyabr və oktyabr aylarında NATO yenidən tərəflər arasında vasitəçilik təşəbbüsü ilə çıxış etdi, lakin bu son cəhdlər də Yunanıstanın problemi BMT çərçivəsində həll edilməsini istəməsi səbəbindən uğursuzluqla nəticələndi.[6]

---

[2] "Letter From Prime Minister Karamanlis to President Eisenhower", Athens, January 17, 1958, https://history.state.gov/historicaldocuments/frus1958-60v10p1/d174 (06.06.2022).
[3] Süha Bölükbaşı, *The Superpowers and the Third World: Turkish-American Relations and Cyprus*, University Press of America, Lanham-New York-London 1988, p. 37.
[4] Suat Bilge, *Kıbrıs Uyuşmazlığı*, Siyasal Kitabevi, Ankara 1993, s. 335-339.
[5] S. Bölükbaşı, *a.g.e.*, s. 27-31.
[6] S. Bilge, *a.g.e.*, s. 335.

NATO-nun problemi həll etmək cəhdlərinin heç bir nəticə verməməsi eyni zamanda NATO-nun quruluşu ilə bağlı idi. Şimali Atlantika Müqaviləsi hazırlandıqda NATO daxili müharibə ehtimalı nəzərə alınmamışdır və belə bir vəziyyətdə tərəflərin hansı öhdəlikləri olacağı məsələsi dəqiqləşdirilməmişdi.

1960-cı ildə Kipr Respublikasının elan edilməsi ilə həm iki NATO müttəfiqini qarşıdurmadan uzaqlaşdırmaq, həm də onlara zəmanətçi öhdəliyi verməklə, adanı NATO-nun himayəsi altında tutmaq üçün şərait yaranmış, eyni zamanda ABŞ-SSRİ münasibətlərində Kipr məsələsinin təhlükə olmaqdan çıxması imkanı yaranmışdı. ABŞ Türkiyə və Yunanıstanla olan əlaqələrinə mənfi təsir edəcəyini düşünərək problemə birbaşa müdaxilədən qaçırdı. Kipr Respublikası qurulduqdan sonra konstitusiya maddələrinin tətbiq edilməsi məsələsində adanın yunan və türk icmaları arasında baş verən mübahislərin şiddətlənməsindən çəkinən ABŞ problemlərin zəmanətçi dövlətlər arasında danışıqlar yolu ilə həlli məsələsində İngiltərəyə təzyiq göstərirdi.[7] İngiltərə isə yalnız öz səyləri ilə problemləri həll edə bilməyəcəyini, bu məsələdə ABŞ-ın istənilən yardımını məmnuniyyətlə qəbul edəcəyini bəyan edirdi.[8]

**2-ABŞ-ın Kipr böhranına münasibəti və Conson məktubu**

Kipr Respublikası qurulduqdan sonra ada müvəqqəti də olsa, iki NATO müttəfiqi arasında mübahisə mövzusu olmaqdan çıxdı və ABŞ-ın Kipr siyasətini şərtləndirən amillərin ardıcıllığı da dəyişdirildi. 1964-cü il böhranına qədər ABŞ-ın Kipr siyasətini əsasən yunan kommunist partiyası AKEL-in gücünün artması, Makariosun müstəqil xarici siyasət yeritmə cəhdləri kimi amillər şərtləndirirdi. Bu səbəbdən ABŞ Kipr üzərində təsirini artıra bilmək üçün Kiprə iqtisadi yardımlarını getdikcə artırırdı. Əks təqdirdə Kiprin ehtiyac duyduğu yardımları SSRİ-nin təmin edəcəyini və Şərqi Aralıq dənizi regionunda kommunizmin təsirinin artacağını düşünürdü.[9]

ABŞ müdaxilə etməmək siyasətini 1964-cü il böhranına qədər davam etdirdi. Lakin 1963-cü ilin sonunda Kipr Respublikasında ilk böyük böhran baş verdikdə istər problemin BMT-in müzakirəsinə verilməsi, istərsə də adadan artan yardım tələblərinə SSRİ-nin cavab verə biləcəyi fikri ABŞ-ı yenidən narahat etdi. Belə ki, Kiprin yunan və türk icmaları arasında qarışıq və həssas balans quran 1960-cı il sisteminin faktiki ortadan qalxmasına səbəb olan qanlı hadisələr 1963-cü ilin sonunda başladı. İki icma arasında yeni dövlətin fəaliyyəti ilə

---

[7] “Telegram From the Department of State to the Embassy in the United Kingdom”, Washington, February 16, 1963, https://history.state.gov/historicaldocuments/frus1961-63v16/d274 (06.06.2022).
[8] “Telegram From the Embassy in the United Kingdom to the Department of State”……(06.06.2022).
[9]“Letter From Prime Minister Karamanlis to President Eisenhower”, Athens, January 17, 1958", https://history.state.gov/historicaldocuments/frus1958-60v10p1/d174 (06.06.2022).

bağlı mübahisələrin şiddətli hal alması və bu vəziyyətin Türkiyə və Yunanıstan arasında gərginliyə səbəb olması ABŞ-ın Kiprə baxışında NATO-nun cənub-şərq qanadındakı təhlükə hissini yenidən ön sıralara çıxartdı. Kiprli yunanlar və türklər yeni yaranmış Kipr Respublikasının hüquqi cəhətdən iki bərabər statuslu təsisçiləri olmasına baxmayaraq, faktiki olaraq onların vahid dövlətin daxilində dinc yaşaması demək olar ki, mümkün olmadı. Yunan tərəfi Kipr Respublikasının Konstitusiyasının dəyişdirilməsini tələb edir, adanın Yunanıstanla birləşməsi ideyasını mütəmadi olaraq gündəmə gətirirdi. Belə bir vəziyyətdə 1963-cü ilin dekabrında 24 kiprli türkün qətlə yetirilməsi ilə nəticələnən icmalararası toqquşmalardan sonra həmin gün toplaşan Türkiyə hökuməti adada Türkiyə Silahlı Qüvvələri tərəfindən atəşkəsin bərpa edilməsini qərara aldı və bu məqsədlə Türkiyə təyyarələri Lefkoşa üzərində xəbərdarlıq mahiyyətli uçuşlar həyata keçirdi. Həmçinin Zəmanət Sazişi çərçivəsində adada olan 650 nəfərlik Türk hərbi birliyi toqquşmalar nəticəsində zərər görən kiprli türkləri toplayıb təhlükəsizliklərini təmin etmişdir. Türk hərbçilərinin baş verən hadisələrə müdaxilə etməsi ilə 25 mindən artıq kiprli türk yaşadıqları yerlərdən təhlükəsiz bölgəyə köçmək məcburiyyətində qaldığından adadakı iki icmanı faktikik olaraq bölən Lefkoşadakı Yaşıl Xətt ortaya çıxdı.[10] Beləliklə, bu tarixdən etibarən Kipr iki icmanın vahid dövlət quruluşu altında bir yerdə yaşamağa çalışdığı dövlət görüntüsü qazandı.

Adada yaranmış mövcud gərginliyin aradan qaldırılması üçün 15 yanvar 1964-cü ildə yığışan London konfransında türk tərəfinin təmsilçisi Rauf Denktaş mövcud nizamın işləmədiyini bəyan etdi və yeni yaranmış vəziyyətdə iki icmalı federativ dövlətin qurulmasını problemin yeganə həlli olaraq qiymətləndirdi. Yunan tərəfinin konstitusiyaya dəyişiklik edilməsində israrlı olması danışıqların uğursuzluqla nəticələnməsinə səbəb oldu və İngiltərə problemin həlli üçün 15 fevral 1964-cü ildə BMT-yə müraciət etdi.[11]

BMT 4 mart 1964-cü ildə qəbul etdiyi qətnamə ilə adada toqquşmaların bitməsi üçün BMT sülhməramlı qüvvələrinin Kiprə göndəriləcəyini açıqladı. Adaya yerləşdirilən BMT sülhməramlı qüvvələrinin toqquşmaların qarşısını almaqda yetərsiz qalması nəticəsində 16 mart 1964-cü ildə yığışan TBMM hökumətə adaya müdaxilə etmə səlahiyyəti verdi. Kiprli yunanların sürətlə silahlandırılması Milli Təhlükəsizlik Şurasının 2 iyun 1964-cü ildə adaya müdaxilə etmək qərarını alması ilə nəticələndi. Lakin Ankaranın bu qərarına baxmayaraq ABŞ prezidenti Lindon B.Consonun 5 iyun 1964-cü ildə İsmət İnönüyə göndərdiyi sərt və təhdid dolu məktub Kipr problemində qüvvələr balansını tamamilə dəyişdirdi. Türkiyə həm

---

[10] Ali Balcı, *Türkiye dış politikası: ilkeler, aktörler ve uygulamalar,* 2. Baskı, ALFA Basım Yayın Dağıtım San. Ve Tic. Ltd. Şti., Ankara 2017, s. 137

[11] Altan Aktaş, *"1964 ve 1967 Kıbrıs krizleri sırasında ABD'nin Kıbrıs politikaları",* Yüksek Lisans Tezi, Ankara 2000, s. 59.

müdaxilə variantını istifadə etməkdən məhrum edildi, həm də problemin həlli təşəbbüsünü ABŞ-a vermək məcburiyyətində qaldı.[12]

ABŞ-ın səlahiyyətli nümayəndəsi Din Açesonun nəzarətində 9 iyul 1964-cü ildə başlayan danışıqlarda Kiprin şimal hissəsində bir bölgənin və Egeydəki Meis adasının Türkiyəyə verilməsi qarşılığında adanın Yunanıstan ilə birləşdirilməsi planı müzakirə edildi[13]. Yunanıstanın xeyrinə olan bu planı Türkiyənin qəbul etməsinə baxmayaraq, Kiprin yunan tərəfi artıq Yunanıstanla birləşmək istəmirdi və yunanlardan ibarət müstəqil Kipr dövlətinin yaradılmasında israrlı idi. Belə bir şəraitdə, eyni zamanda danışıqların getdiyi bir vaxtda 6 avqustda kiprli yunanların Erenköyə hücum etməsi və tərəflər arasındakı gərginlik səviyyəsinin ən üst səviyyəyə çatması danışıqların bitməsinə səbəb oldu.

Kipr türklərinin Türkiyə ilə başlıca əlaqə nöqtəsi olan Erenköy limanını müdafiə edən türk qoşunlarını xilas etmək istəyən Türkiyə ordusu 8 avqustda hərbi təyyarələri ilə adaya havadan müdaxilə etdi və bombardman zamanı 33 kiprli yunan qətlə yetirildi.[14] Daha sonra yunan hərbi təyyarələrinin Lefkoşa üzərində uçması nəticəsində gərginlik daha da artdı və problem yenidən BMT-nin gündəliyinə çıxarıldı. ABŞ və SSRİ-dən gələn təzyiqlər nəticəsində Türkiyə BMT-nin atəşkəs haqqında qərarına riayət edərək 10 avqustda havadan hücumu dayandırdı, əvəzində isə kiprli yunanlar Erenköyü mühasirədən azad etdilər. 1964-cü ilə qədər istər 27 maydan sonra iqtidarı ələ keçirən hərbi rejim, istərsə də İnönü hökuməti qərb yönümlü xarici siyasət həyata keçirir, SSRİ-nin sülh və əməkdaşlıq təkliflərinə müsbət cavab vermirdi. Çevrilişdən sonra maaşların artırılması ilə yanaşı, hərbi xərclərin də əhəmiyyətli dərəcədə artması əsasən ABŞ-dan gələn iqtisadi yardımlar hesabına ödənirdi və bu səbəbdən rəsmi Ankaranın ABŞ-a olan bağlılığı daha da artmışdır. Bu bağlılıq o dövrün müdafiə naziri tərəfindən açıq şəkildə belə ifadə edilmişdir: “Milli büdcəmiz silahlı qüvvələrimizin ehtiyac duyduğu bütün vəsaitləri təmin etməyə kifayət etmir. Bu səbəbdən ordumuzun ehtiyac duyduğu silah, sursat və vəsaitlərin böyük hissəsini böyük dostumuz və müttəfiqimiz ABŞ təmin edir”.[15] Dolayısı ilə ABŞ və NATO yönümlü xarici siyasət Türkiyənin qərbə mənsubiyyətini təsdiqləməyin və Sovet təhdidinin qarşısını almağın əsas vasitəsi idi və eyni zamanda Türkiyəyə əhəmiyyətli iqtisadi üstünlük təmin edirdi. Lakin qərbyönümlü siyasət 1964-cü ildə baş verən hadisələr nəticəsində uğursuzluğa düçar oldu.

---

[12] A. Balcı, *a.g.e.,* s. 138.
[13] A. Balcı, *a.g.e.,* s. 138.
[14] A. Balcı, *a.g.e.*, s. 139.
[15] Ahmed Feroz, *Demokrasi Sürecinde Türkiye 1945-1980,* (çev. Ahmet Fethi), İstanbul 1996, s. 403.

ABŞ və SSRİ arasında baş verən U-2 kəşfiyyat təyyarəsi böhranından sonra[16] Yupiter raketləri böhranı Soyuq müharibə kontekstində Türkiyənin mənfəətlərinə Vaşinqtonun əhəmiyyət vermədiyini açıq şəkildə nümayiş etdirmişdi. Belə ki, 28 oktyabr 1959-cu ildə Parisdə bağlanan gizli saziş ilə İzmirdə Çiyli haca bazasında yerləşdirilmiş nüvə başlıqlı Yupiter raketləri.[17] Ankara tərəfindən SSRİ-yə qarşı təsirli təhlükəsizlik tədbiri hesab edilirdi. Raketlərin 1962-ci ildə işlək vəziyyətə gətirilməsinə baxmayaraq eyni il daxilində Sovet İttifaqının ABŞ-ın yaxınlığındakı Kubaya nüvə raketi yerləşdirməyə çalışması böyük bir böhrana səbəb oldu. Vaşinqton və Moskva arasında həyata keçirilən sövdələşmələr nəticəsində Kubaya raket yerləşdirilməməsi qarşılığında ABŞ İzmirdəki Çiyli bazasına yerləşdirdiyi 15 nüvə başlıqlı Yupiter raketini sökməyə qərar verdi.[18] Lakin Türkiyəyə bəhanə olaraq bu raketlərin texnoloji cəhətdən daha yüksək Polaris sualtı raketləri ilə dəyişdiriləcəyi söyləndi.

5 iyun 1964-cü ildə türk hökuməti ABŞ-ın Türkiyənin mənfəətlərinə münasibətini bir daha yoxladı. Türkiyə parlamenti 1964-cü il 16 martda Kiprə müdaxilə məsələsində hökumətə səlahiyyət verdi və adaya müdaxilə üçün hərbi hazırlıqlara başladı. Nəticədə ABŞ prezidenti L.Conson Türkiyəyə sərt və təhdid xarakterli məktub göndərdi. Məktubda həmçinin Türkiyəyə mümkün Sovet müdaxiləsinə qarşı NATO-nun onu müdafiə etmə fürsəti tapa bilməmə ehtimalı ifadə edilmişdir.

İnönü 13 iyunda ABŞya verdiyi gecikmiş cavabında Consonun ifadələrinin "məyusedici" olduğunu qeyd etdi. Kipr məsələsində ABŞ-ın reaksiyasından xeyli narahat olan İnönü 16 aprel 1964-cü ildə Milliyyət qəzetinə[19] verdiyi müsahibədə NATO və ABŞ ilə münasibətlərin yenidən nəzərdən keçirilməsinin zəruri olduğunu qeyd etmişdir.

Bu tarixdən sonra Türkiyə-ABŞ münasibətləri Conson məktubunun kölgəsində davam etdi. Yaranmış yeni vəziyyətdə ilk olaraq Türkiyə 1965-ci ilin yanvarında NATO çərçivəsində formalaşdırılan çoxtərəfli nüvə dəniz qüvvələrinə qoşulmaqdan imtina etdiyini bəyan etdi. Bu vaxta qədər bazaların NATO məqsədlərindən kənar ABŞ tərəfindən istifadəsinə göz yuman Türkiyə artıq bu kimi pozuntulara sərt reaksiya göstərməyə başladı. Məsələn, 1965-ci ilin sonunda İncirlikdə hələ 1960-cı ildə ləğv edildiyi söylənən U-2 hərbi qruplaşmasının

---

[16] "Ver Türkiye'yi al Küba'yı", *Hürriyyet gazetesi*, 28 ekim 2018, https://www.hurriyet.com.tr/gundem/ver-turkiye-yi-al-kuba-yi-21794988 (06.06.2022).
[17] Halil Şimşek, Johnson mektubu ve Türk Amerikan İlişkilerine Etkisi", *Yeni dönemde Türk dış politikası Uluslararası IV. Türk Dış Politikası Sempozyumu Tebliğleri*, Ed. Osman Bahadır Dinçer, Habibe Özdal, Hacali Necefoğlu, USAK Yayınları, Ankara 2010, s. 82.
[18] H. Şimşek, a.g.m., s. 83.
[19]"Batı İttifakı Yıkılır", *Milliyyet gazetesi*, 16 nisan, 1964, http://gazetearsivi.milliyet.com.tr/Arsiv/1964/04/16 (06.06.2022).

kəşfiyyat təyyarəsinin Qara dəniz üzərində qəzaya uğraması nəticəsində aktiv olduğunun üzə çlxması ilə istər hökumət, istərsə də baş qərargah rəhbərliyi narahatlığını açıq şəkildə ifadə etdi.[20]

Həmçinin NATO çərçivəsində ölkədə olan 24 mindən çox ABŞ hərbçisi, bazaları və silahları ictimaiyyətin getdikcə artan tənqidinə məruz qalırdı. Məsələn, 1965-ci il seçki kampaniyası zamanı Türkiyə Fəhlə Partiyasının sədri Mehmet Əli Aybar "bu gün 35 milyon kvadrat metrlik vətən torpağı ABŞ işğalı altındadır. Bu bazalarda ABŞ bayrağı dalğalanır və bu bazaların hər biri bir kiçik ABŞ-dır. Bu bazalara türk polisi girə bilməz"[21] ifadələrini işlətməsi ilə ilk dəfə Türkiyənin NATO üzvlüyü ictimaiyyət qarşısında açıq şəkildə sorğulanmışdır.

Türkiyə Fəhlə Partiyasının başlatdığı NATO-ya qarşı hərəkat və anti-amerikan əhval-ruhiyyə, ABŞ bazalarının qısa müddət ərzində küçə nümayişlərinin və universitetdəki zorakılıq hadisələrinin başlıca mövzusuna çevrilməsi o dövrdə Türkiyənin gündəmini təşkil edirdi. İctimaiyyətin tənqidi reaksiyası ilə yanaşı siyasətçilər də Conson məktubundan sonra iki ölkə arasındakı sazişlərin artıq qarşılıqlı etimad əsasında işləməyəcəyini düşünürdü. Bu səbəbdən 1950-ci illərdə imzalanmış 50-dən çox fərqli sazişə əsasən ABŞ-ın Türkiyədəki varlığı yeni mərhələdə problem olmağa başlamışdır. Türkiyə xarici işlər naziri İhsan Sabri Çağlayangil 7 aprel 1966-cı ildə ABŞ-a nota verərək[22] hökumətin ikili sazişlər səbəbilə yüksək təzyiq altında olduğunu dəlil göstərmiş və mövcud sazişlərin sadələşdirilməsi və ya ləğv edilməsini tələb etmişdir.

Vyetnamda apardığı müharibə səbəbilə iqtisadi problemlər yaşayan ABŞ 8 mart 1968-ci ildə Türkiyəyə göstərilən hərbi və iqtisadi yardımları dayandırmaq haqqında verdiyi qərar Türkiyəyə açıq şəkildə çatdırıldı.[23] Əks reaksiya həmin ilin 18 iyulunda bir qrup tələbənin İstanbula səfər edən ABŞ-ın VI Dəniz Donanmasına mənsub əsgərlərin Dolmabağçada dənizə tökülməsi ilə verildi.[24] 1965-ci ildən etibarən Sülh Könüllüləri Layihəsi çərçivəsində Türkiyədəki universitetlər və məktəblərdə dərs deyən amerikalı müəllimlər reaksiyaların hədəfinə çevrilmiş, onların Türkiyəni tərk etmələrini istəyən türkiyəli məsləkdaşları dərsləri baykot etməyə başlamışdılar.

İqtisadi problemlər, ictimaiyyətin təzyiqləri və çoxtərəfli xarici siyasət cəhdləri Türkiyənin ABŞ ilə əlaqələrində dəyişiklik etməsi ilə nəticələndi. Türkiyə ilə ABŞ arasında

---

[20] Selin M. Bölme, *İncirlik Üssü: ABD'nin üs politikası ve Türkiye*, İletişim yayınları, İstanbul 2012, s. 229.
[21] A. Balcı, *a.g.e.*, s. 143.
[22] Dışişleri Bakanlığı Belleteni, 6 ocak, 1966, http://diad.mfa.gov.tr/diad/belleteni/1966-sayi-16-27.pdf (06.06.2022).
[23] S. M. Bölme, *a.g.e.*, s. 244.
[24] Agit Cihan, *Devrimin Önsözü Deniz Gezmiş*, Yeni Dönem Yayıncılık, İstanbul 2010, s. 80-82.

1966-cı ildə başlayan ikitərəfli danışıqların nəticəsində 3 iyul 1969-cu ildə Ortaq Müdafiə Əməkdaşlığı Sazişi imzalandı.[25] Saziş daha əvvəl iki ölkə arasında imzalanmış bütün sazişləri birləşdirib sadələşdirdi və 4 məqamda ABŞ-ın Türkiyədəki varlığına məhdudiyyət qoydu. İlk olaraq, artıq ABŞ hökuməti Türkiyədəki bazalarında üçüncü ölkələrə qarşı Türkiyənin icazəsini almadan hər hansı əməliyyat hazırlamayacaqdı. İkincisi, müdafiə bazalarının Türkiyənin mülkiyyəti olduğu sazişdə açıq şəkildə ifadə edilmiş və beləliklə, "vətən torpağının işğal altında olduğu" tənqidləri sazişdə öz hüquqi cavabını tapmışdı. Üçüncüsü, Türkiyə öz torpaqları üzərində olan bütün bazalara nəzarət etmək hüququ əldə etmişdi. Son olaraq isə Türkiyə beynəlxalq təhlükəsizlik səbəbilə bazaların istifadəsinə məhdudiyyət qoyma hüququna sahib olmuşdu. Beləliklə, Türkiyə-ABŞ arasında əvvəlki dövrlərin mirası olan birtətərfli asılılıq münasibətləri ikitərəfli balanslaşdırılmış asılılıq münasibətləri ilə əvəzləndi. Bütün bunlara baxmayaraq Türkiyədəki rejimin təməli olaraq görülən Qərb ilə İttifaq, xüsusən də NATO ilə müttəfiqlik hər zaman prioritet olaraq qaldı.

Türkiyə adaya hərbi müdaxilə etməyin problemin həllini asanlaşdıracağını düşünsə də, ABŞ-ın etirazları ilə daima qarşılaşmaq ehtimalı onu bu addımdan çəkindirirdi. Lakin yalnız kiprli yunanlardan ibarət olan Kipr parlamentinin 1 iyun 1964-cü ildə hökumətə ordu yaratmaq səlahiyyətini verən "Məcburi Hərbi Qanun"unu qəbul etməsi.[26] Türkiyənin səbr kasasını dolduran son damla oldu. Növbəti gün yığışan Milli Təhlükəsizlik Şurası Türkiyənin Kiprə hərbi müdaxilə etməsi haqqında qərar qəbul etdi. Türkiyə adada siyasi və hərbi mövqeyini gücləndirməyə kifayət edəcək qədər ərazini ələ keçirməyi planlaşdırırdı. Bu güc nümayişi növbəti danışıqlarda Türkiyə üçün qənaətbəxş həll yolunun tapılmasını asanlaşdıracaqdı.

ABŞ-ın Ankaradakı səfiri Raymond Heyr məlumat almaq məqsədilə 4 iyunda xarici işlər naziri Feridun Camal Erkin ilə görüşdü. Erkin adadakı vəziyyətin çox gərgin olduğunu və həmin axşam keçiriləcək kabinetin iclasında hətta adaya müdaxilə haqqında qərar verilə biləcəyinin mümkünlüyünü də bildirdi. Vəziyyətin ciddiliyini görən səfir həmin gün ABŞ xarici işlər nazirliyinə "çox gizli" və "təcili" başlıqlı teleqraf göndərərək baş verənləri öz hökumətinə çatdırdı. Eyni zamanda ABŞ XİN-dən, Afinadakı ABŞ səfirliyindən "Türkiyəni müdaxilə qərarından imtina etdirə biləcək hər hansı bir şey" gözlədiyini bidirdi.[27] Elə həmin gün Türkiyənin ABŞ-dakı səfiri Turgut Menemencioğlu ilə telefonla danışan ABŞ xarici işlər

---

[25] Baskın Oran-Altay Akdevelioğlu, *"Türk dış politikası: Kurtuluş Savaşından bugüne olgular, belgeler, yorumlar"*, C. I, İstanbul 2004, s. 697.
[26] Süha Bölükbaşı, "The Johnson Letter Revisited", *Middle Eastern Studies,* Vol. 29, No. 3, July 1993, p. 516.
[27] "Telegram From the Embassy in Turkey to the Department of State", Ankara, June 4, 1964, https://history.state.gov/historicaldocuments/frus1964-68v16/d50 (06.06.2022).

naziri Devid Din Rask dövlət başçısı Consonun Heyr-Erkin görüşündə müzakirə edilən məsələlərlə yaxından maraqlandığını bildirdi və Türkiyənin belə bir addım atmadan əvvəl müttəfiqlərlə müzakirələr aparmaq öhdəliyinin olduğunu və Consonun da bu məsələdə təkid etdiyini vurğuladı.[28] 4 iyunda ABŞ XİN-i tərəfindən səfir R.Heyrin baş nazir İ.İnönü ilə dərhal görüşməsi, Kiprə ediləcək hər hansı müdaxiləyə ABŞ-ın razı olmadığını çatdırması, lazım gələrsə, İnönünü kabinetin iclasından çıxararaq adaya müdaxilə qərarından imtina etməyə məcbur etməsi və ilkin danışıqlar məsələsində yola gətirməsi üçün əlindən gələni etməsi təlimatı verildi.[29] 3 saat davam edən Heyr-İnönü danışıqları bitən kimi Vaşinqtona hesabat verən səfir Türkiyənin müdaxilə qərarının qəti olduğunu, adanın sadəcə bir hissəsinə girməyə niyyətli olduğunu, ABŞ-dan yeganə istəyinin "bu niyyəti nəzərə alaraq anlayışlı davranması" olduğunu bildirdi. Heyr ABŞ-ın mövqeyini bildirməsi üçün müəyyən vaxta ehtiyacı olduğunu bildirərək İnönünü 24 saat gözləməyə məcbur etdi.[30]

Və nəticədə cavab olaraq ABŞ dövlət başçısı Consonun məktubu göndərildi. Altında prezident Lindon B.Consonun adı yazılsa da, bu məşhur məktub ABŞ xarici işlər naziri Devid Din Rask, onun köməkçisi Harlan Klevlend və Klevlendin köməkçisi Cozef Sisko tərəfindən hazırlanmışdı.[31] Türkiyə-ABŞ əlaqələrinin inkişafına təsir edəcək sərt ifadələri ehtiva edən məktubda Türkiyə hökumətinin Kiprə hərbi müdaxilə etmək qərarından ABŞ-ın narahat olduğu vurğulanmışdır. Məktubda qeyd edilirdi ki, 1960-cı il tarixli Zəmanət haqqında Saziş zəmanətçi dövlətlər arasında məsləhətləşmələri tələb edir. ABŞ bu vəziyyətdə müzakirə imkanlarının bitmədiyini və təktərəfli hərəkət etmək haqqının hələ tətbiq edilməməli olduğu qənaətindədir. Türkiyənin Kiprə hərbi müdaxiləsi Sovet İttifaqının məsələyə birbaşa qarışmasına yol aça bilər. NATO üzvlərinin tam razılığı olmadan Türkiyə bu addımı atdığı təqdirdə mümkün Sovet müdaxiləsinə qarşı mütttəfiq dövlətlər tərəfindən dəstəklənməyəcəyi ilə də hədələnirdi. Bu ifadələr Şimali Atlantika Müqaviləsinin kollektiv özünümüdafiə prinsipini ehtiva edən 5-ci maddəsi ilə tamamilə zidd idi.

Həmçinin BMT üzvlərinin əksəriyyətinin də Türkiyənin birtərəfli hərəkətinə ən sərt şəkildə reaksiya verəcəyi qeyd olunurdu. Məktubda həmçinin bəyan edilmişdir ki, ABŞ Türkiyə ilə arasında mövcud olan 1947-ci il tarixli Müqavilələnin IV maddəsinə görə, hərbi yardımın verilmə məqsədlərindən başqa məqsədlər naminə istifadə edilməsinə razı olmayacaqdı. Conson həmçinin İnönünün məsələnin gizli tutulması haqqında səfir Heyrə

---

28 "Memorandum of Telephone Conversation, Washington", June 4, 1964", (06.06.2022).
29 *a.g.e.*
30"Telegram From the Embassy in Turkey to the Department of State", Ankara, June 5, 1964, https://history.state.gov/historicaldocuments/frus1964-68v16/d53 (06.06.2022).
31 Haluk Şahin, *Johnson Mektubu: Türk-ABD İlişkilerini Değiştiren Olayın Perde Arkası,* Gendaş Predikat, İstanbul 2002, s. 15-16.

göstərişinin qəbul edilməyəcəyini, NATO Şurasının və BMT Təhlükəsizlik Şurasının təcili olaraq çağırılmasını tələb edəcəyi ilə Türkiyəni hədələmişdir.[32] Bu ifadələrdən sonra prezident Conson danışıqların aparılması üçün baş nazir İ.İnönünü Vaşinqtona dəvət edirdi. Son dərəcə sərt üslubda yazılmış və təhdidlər ehtiva edən belə bir məktubun göndərilməsinin əsas səbəbi müdaxilənin nəticələrindən ABŞ-ın xeyli dərəcədə qorxması idi. Belə ki, Türkiyənin adaya hərbi müdaxiləsi ilə başlaması qaçınılmaz olan regional qarşıdurma ABŞ-ın həyati vacib mənafelərini və təhlükəsizliyini təhdid edəcək nüvə müharibəsinə qədər yüksələ bilərdi.

Məktubda bəhs edilən müqavilə 12 mart 1947-ci il tarixli Trumen doktrinası və 22 may 1947-ci il tarixli "Türkiyə və Yunanıstana yardım göstərilməsinə dair Qanun"a əsasən türk və ABŞ hökumətləri arasında 12 iyul 1947-ci ildə imzalanmışdır. Məhz bu müqavilənin IV maddəsinə əsasən ABŞ onun razılığı olmadan Türkiyə hökumətinin aldığı yardımı başqa məqsədlər üçün istifadə etməyə imkan verməyəcəkdi.[33]

ABŞ müharibə ehtimalının qarşısını almaq üçün belə bir sərt çıxışı məqbul hesab etdi, əks təqdirdə bu, Türkiyə üzərində təsirli olmaya bilərdi. Lakin ABŞ hökuməti məktubla kifayətlənməyərək NATO-nun Avropada Birləşmiş Silahlı Qüvvələrinin baş komandanı general Layman Lemnitseri Ankaraya göndərdi. Səfərin məqsədi Türkiyənin müdaxilə məsələsində qərar vermədən əvvəl mütləq müttəfiqlərlə danışıqlar aparmasının zəruriliyini vurğulamaq idi.[34]

Prezident Consonun məktubunu gətirən səfir Heyrin yanında məktubu oxuyan baş nazir İnönü müəyyən məqamlarda Consonla razılaşmasa da, problemin sülh yolu ilə həll edilməsi üçün müzakirələr aparmaq təklifinin münasib olduğunu bildirdi, lakin bunun qərar olaraq elan edilməsi üçün Kabinetin razılığının alınmasının zəruri olduğunu söylədi. İnönünün fikrincə, problemin müttəfiqlər arasında diplomatik yolla həll edilməsi üçün ABŞ-ın daha fəal olacağının ictimaiyyətə çatdırılması əhəmiyyətli idi. Səfir Heyr ilə görüşdən qısa müddət sonra General Lemnitser İnönü ilə görüşdü.[35] Bu söhbətlərdən sonra keçirilən kabinet iclası nəticəsində Türkiyə hökumətinin Kiprə müdaxiləsinin hələlik təxirə salındığı duyuruldu.[36]

Türkiyənin Kiprə hərbi müdaxilə ehtimalı Yunanıstanı narahat edirdi. Hələ 25 fevral

---

[32] "President Johnson and Prime Minister Inonu: Correspondence between President Johnson and Prime Minister Inonu", June 1964, https://www.jstor.org/stable/4324028 (06.06.2022).
[33] Fahir Armaoğlu, *Belgelerle Türk-Amerikan Münasebetleri,* Atatürk Kültür, Dil ve Tarih Yüksek Kurumu Türk Tarih Kurumu Yayınları, Ankara 1991, s. 163.
[34] A. Aktaş, *a.g.e.,* s. 77.
[35] "Telegram From the Embassy in Turkey to the Department of State……, June 5, 1964, (06.06.2022).
[36] A. Aktaş, *a.g.e.,* s. 77.

1964-cü ildə G.Papandreu Makariosa göndərdiyi dəstək məktubunda Türkiyə ilə Yunanıstan arasında müharibənin baş verməsini çılğınlıq hesab edir, lakin Türkiyənin belə bir addım atması halında Yunanıstanın bir an belə tərəddüd etmədən eyni qaydada davranacağını vurğulayırdı.[37]

Yəhudi şərqşünas alim Yaakov Landaunun fikrincə, Consonun məsələyə sərt mövqeyini şərtləndirən amillərdən biri də ABŞ-dakı yunan lobbisi idi. Xüsusilə də, 1964-cü ilin I yarısında Ağ Saray Kipr məsələsində yunanların mövqeyini müdafiə edən və prezidentin siyasətinə təsir göstərməyə çalışan çoxlu sayda telefon, teleqraf, məktub və s. ilə qarşılaşmışdı. Eyni zamanda 1964-cü ilin noyabrında ABŞ-da seçkilər keçiriləcəkdi və yunan əsilli ABŞ vətəndaşları əhəmiyyətli əyalətlərdə nəticələrə təsir edə biləcək sayda, təqribən 400 min seçici idi.[38]

ABŞ Afinadakı səfirliyinə 5 iyunda göndərdiyi teleqramda Yunanıstan hökumətinə bəzi təlimatlar verdi: Kiprli yunanlar üzərində təzyiqi artırmaq, Türkiyəyə yönəlik jestlər etmək, gərginliyi azaltmaq məqsədilə Kipr türk icmasına bəzi imtiyazlar vermək, bunun üçün Papandreunun Baş yepiskop Makariosa təzyiq göstərməsi və s.[39]

8 iyunda Yunanıstan xarici işlər naziri Stavros Kostopoulos ilə görüşən ABŞ-ın Afinadakı səfiri Henri Labouisse Türkiyə və Yunanıstan arasında danşıqların aparılması məsələsində ABŞ-ın təkid etdiyini bildirdi. S.Kostopoulos isə Papandreunun Makariosa qarşı çıxması halında Makariosun dəstək üçün SSRİ ilə daha çox yaxınlaşacağını və Türkiyə ilə danışıqlar aparmaq fikrini çox da dəstəkləmədiyini bildirdi.[40] Lakin Şərqi Aralıq dənizində müharibə təhlükəsinin yüksək olduğu bu dövrdə ABŞ administrasiyası üçün Makarios-SSRİ yaxınlaşmasından daha çox Türkiyə-Yunanıstan əlaqələrinin normallaşması vacib idi.

Türkiyəni müdaxilə qərarından çəkindirməyə çalışan ABŞ xarici işlər nazirinin köməkçisi Corc Bolu baş nazirlərlə danışıqlar aparması üçün Türkiyə və Yunanıstana göndərməyi qərarlaşdırdı.[41] Eyni zamanda prezident Conson Yunanıstanın Vaşinqtondakı səfiri Aleksandr Matsasa Türkiyənin adaya müdaxilə etməsinə imkan vermədiyini, lakin bu vəziyyəti uzun müddət davam etdirə bilməyəcəyini bildirərək problemin ikitərəfli danışıqlarla həll edilə biləcəyini, əks təqdirdə təhlükəli nəticələrə səbəb olacağını söylədi. Səfirin

---

[37] Andreas Papandreou A., *G. Namlunun Ucundaki Demokrasi,* (çev. Semih Koray ve Mehmet Emin Yıldırım), Bilgi Yayınları, Ankara 1988, s. 163.

[38] Jacob M. Landau, *"Johnson's Letter to Inonu and the Greek Lobbying at the White House",* The Turkish Yearbook of International Relations, S. 14, 1976, s. 45.

[39] "Telegram From the Embassy in Greece to the Department of State", Athens, June 8, 1964, https://history.state.gov/historicaldocuments/frus1964-68v16/d57 (06.06.2022).

[40] *a.g.e.*

[41] "Telephone Conversation Between President Johnson and Secretary of State Rusk", Washington, June 9, 1964, https://history.state.gov/historicaldocuments/frus1964-68v16/d59 (06.06.2022).

Makarios olmadan Yunanıstanın danışıqlara getməyəcəyi yönündəki etirazına prezident Conson Makariosu razılığa gəlinməsi mümkün olmayan, qərbin təhlükəsizliyinə əhəmiyyət verməyən biri adlandırmış, Türkiyə və Yunanıstanın razılığa gəlməsini daha əhəmiyyətli hesab etmişdi. Conson hesab edirdi ki, Yunanıstan dərhal problemin dinc yollarla həll edilməsi istiqamətində addımlar atmalı, müttəfiqi Türkiyəni alçaldacaq hərəkətlərdən qaçınmalıdır.[42]

Afinada baş nazir Papandreu ilə görüşən Corc Bol onu İnönü ilə danışıqlar aparmağa razı salmağa çalışsa da, Papandreu bu fikrə qarşı çıxdı.[43] Onun fikrincə, Türkiyə ilə birbaşa danışıqlar aparmaq Kipr probleminin Türkiyə və Yunanıstan arasında olduğunu qəbul etmək deməkdir. Daha sonra Türkiyəyə səfər edən Bol ABŞ-ın Türkiyə ilə dostluğuna əhəmiyyət verdiyini bildirərək Kipr məsələsində yunan tərəfini dəstəkləmədiyinə İ.İnönünü inandırmağa çalışdı, Papandreu ilə Makarios arasında Enosis ilə bağlı anlaşılmazlıq olduğunu və Kipr məsələsinin həll edilməsi üçün zamanın münasib olduğunu bildirdi. ABŞ-ın problemin həlli istiqamətində səylərinə cavab olaraq İnönü 13 iyunda Consona ünvanladığı cavab məktubunda ABŞ-ın dəvətini qəbul etdiyini bəyan etdi. 22 iyunda İnönüyə, 24 iyunda isə Papandreuya Vaşinqtona səfər etmək məqsədilə rəsmi dəvətlər göndərildi.[44]

BMT-nin atəşkəs qərarından sonra adadakı gərginlik bir müddət sakitləşmiş və bu müddət ərzində ikili danışıqlar yolu ilə problemin həll edilməsinə çalışılmışdır. 1966-cı ilin sonuna qədər davam edən bu danışıqlar ərzində Ankara adadakı Türk Müqavimət Təşkilatı üzvlərini geri çağırmış, Afina da kiprli yunanların Çexoslovakiyadan silah almasına mane olmuşdur.[45]

1967-ci ilin aprelində Yunanıstanda baş vermiş çevrilişdən sonra hərbi xunta idarəçiliyi də Türkiyə ilə danışıqları davam etdirmiş, bu məqsədlə tərəflər 9-10 sentyabr 1967-ci ildə görüşmüşdürlər. Bu hadisələrdən məmnun olmayan G.Qrivas rəhbərliyindəki hərbi birliklərin 15 noyabr 1967-ci ildə adadakı türk kəndlərinə hücumları nəticəsində 24 türk və 2 kipli yunan öldürülmüşdü.[46] Nəticədə Milli Təhlükəsizlik Şurası yığışaraq kiprli yunanların Kiprin türk kəndlərindən çıxmaması təqdirində havadan müdaxilə etmək haqqında qərara gəlmişdi. Eyni gün TBMM-də həyata keçirilən səsvermə ilə hökumətə adaya müdaxilə

---

[42] "Memorandum of Telephone Conversation, Washington, June 4, 1964", https://history.state.gov/historicaldocuments/frus1964-68v16 (06.06.2022).
[43] "Telegram From the Embassy in Greece to the Department of State", Athens, June 13, 1964, https://history.state.gov/historicaldocuments/frus1964-68v16/d67 (06.06.2022).
[44] George Ball, *The Past Has Another Pattern: Memoirs,* W. W. Norton & Company, New York 1982, p. 354-355.
[45] A. Balcı, *a.g.e.,* s. 140.
[46] Dışişleri Bakanlığı Belleteni, S. 38, Kasım 1967, http://diad.mfa.gov.tr/diad/belleteni/1967-sayi-28-39.pdf (06.06.2022).

səlahiyyəti verilmişdi. Lakin ordunun hərbi müdaxilə potensialının zəif olması və mümkün qarşıdurmanın Türkiyə və Yunanıstan arasında da hərbi qarşıdurmaya çevrilməsi riski Ankaranı yenə geri addım atmaq məcburiyyətində qoydu. Türkiyənin adaya hərbi müdaxilədən imtina etməsindən sonra kiprli türklər 28 dekabr 1967-ci ildə Kipr Müvəqqəti Türk İdarəçiyini elan etdi[47] və beləliklə, ada faktiki olaraq idarəçilik baxımından 2 hissəyə böləndü.

[47] *a.g.e.*

**Nəticə**

1963-1964-cü illərdə kiprli türklərə qarşı törədilmiş cinayətlər qarşısında artıq seyrçi mövqedə dayanmayan Türkiyə hökuməti adaya müdaxilə etmək və soydaşlarını yaranmış vəziyyətdən xilas etmək haqqında qərar verdi. Lakin ABŞ-ın sərt mövqeyi və təhdidləri nəticəsində Türkiyə bu qərarını təxirə salmaq məcburiyyətində qaldı. Buna baxmayaraq, 1963-1964-cü il hadisələrindən sonra Türkiyə-Yunanıstan münasibətləri tamamilə dəyişdi. Kipr məsələsi iki NATO ölkəsi arasında uzun müddət davam edən gərginliyin təməlini formalaşdırdı. Bu vəziyyətdən ən çox təsirlənən isə Türkiyə və Yunanıstanda yaşayan yunan və türk azlıqları oldu. 1964-cü il hadisələrindən sonra bir il ərzində hər iki ölkədən xeyli sayda əhali deportasiya edildi.[48]

Türkiyənin ABŞ-dan gələn təzyiqlər və Sovet təhdidi səbəbilə geri addım atması adada yaranmış problemi həll etmədi. Lakin bu hadisə Ankaranın Kipr məsələsində beynəlxalq aləmin dəstəyini artırmağı hədəfləyən yeni strategiya izləməsini labüd etdi.

---

[48] H. Şahin, *a.g.e.*, s. 153.

## İstifadə Edilmiş Ədəbiyyat

AKTAŞ, A., "*1964 ve 1967 Kıbrıs krizleri sırasında ABD'nin Kıbrıs politikaları"*, Yüksek Lisans Tezi, Ankara 2000.

AMBROSE, S.E., *Dünyaya Açılım: 1938'den Günümüze Amerikan Dış Politikası,* (çev. Ruhican Tul), Dış Politika Enstitüsü Yayınları, Ankara 1992.

ARMAOĞLU, F., *Belgelerle Türk-Amerikan Münasebetleri,* Atatürk Kültür, Dil ve Tarih Yüksek Kurumu Türk Tarih Kurumu Yayınları, Ankara 1991.

BALCI, A., *Türkiye dış politikası: ilkeler, aktörler ve uygulamalar,* 2. Baskı, ALFA Basım Yayın Dağıtım San. Ve Tic. Ltd. Şti., Ankara 2017.

BALL, G., *The Past Has Another Pattern: Memoirs,* W. W. Norton & Company, New York 1982.

BİLGE, S., *Kıbrıs Uyuşmazlığı*, Siyasal Kitabevi, Ankara 1993.

BÖLME, S.M., *İncirlik Üssü: ABD'nin üs politikası ve Türkiye,* İletişim yayınları, İstanbul 2012.

BÖLÜKBAŞI, S., "The Johnson Letter Revisited", *Middle Eastern Studies,* Vol. 29, No. 3, July 1993, p. 505-525.

………………., *The Superpowers and the Third World: Turkish-American Relations and Cyprus",* University Press of America, Lanham-New York-London 1988.

CİHAN, A., *Devrimin Önsözü Deniz Gezmiş*, Yeni Dönem Yayıncılık, İstanbul 2010.

FEROZ, A., *Demokrasi Sürecinde Türkiye 1945-1980,* (çev Ahmet Fethi), 2. Baskı, İstanbul 1996.

LANDAU, J. M., "Johnson's Letter to Inonu and the Greek Lobbying at the White House", *The Turkish Yearbook of International Relations,* S. 14, 1976, p. 45.

ORAN, B. ve AKDEVELİOĞLU, A., *"Türk dış politikası: Kurtuluş Savaşından bugüne olgular, belgeler, yorumlar",* C. I, İletişim Yayınları, İstanbul 2004.

PAPANDREOU, A., *G. Namlunun Ucundaki Demokrasi,* (çev. Semih Koray ve Mehmet Emin Yıldırım), Bilgi Yayınları, Ankara 1988.

ŞİMŞEK, H., "Johnson mektubu ve Türk Amerikan İlişkilerine Etkisi", *Yeni dönemde Türk dış politikası Uluslararası IV. Türk Dış Politikası Sempozyumu Tebliğleri*, Ed. Osman Bahadır Dinçer, Habibe Özdal, Hacali Necefoğlu, USAK Yayınları, Ankara 2010, s. 82.

"President Johnson and Prime Minister Inonu: Correspondence between President Johnson and Prime Minister Inonu", June 1964, https://www.jstor.org/stable/4324028 (06.06.2022).

"Telegram From the Department of State to the Embassy in the United Kingdom", Washington, February 16, 1963, https://history.state.gov/historicaldocuments/frus1961-63v16/d274 (06.06.2022).

"Telegram From the Embassy in Greece to the Department of State", Athens, June 13, 1964, https://history.state.gov/historicaldocuments/frus1964-68v16/d67 (06.06.2022).

"Telegram From the Embassy in Greece to the Department of State", Athens, June 8, 1964, https://history.state.gov/historicaldocuments/frus1964-68v16/d57 (06.06.2022).

"Telegram From the Embassy in the United Kingdom to the Department of State", London, February 23, 1963, https://history.state.gov/historicaldocuments/frus1961-63v16/d276 (06.06.2022).

"Telegram From the Embassy in Turkey to the Department of State", Ankara, June 4, 1964, https://history.state.gov/historicaldocuments/frus1964-68v16/d50 (06.06.2022).

"Telegram From the Embassy in Turkey to the Department of State", Ankara, June 5, 1964, https://history.state.gov/historicaldocuments/frus1964-68v16/d53 (06.06.2022).

"Telephone Conversation Between President Johnson and Secretary of State Rusk", Washington, June 9, 1964, https://history.state.gov/historicaldocuments/frus1964-68v16/d59 (06.06.2022).

ŞAHİN H., *Johnson Mektubu: Türk-ABD İlişkilerini Değiştiren Olayın Perde Arkası*, Gendaş Predikat, İstanbul 2002.

"Ver Türkiye'yi al Küba'yı", *Hürriyyet gazetesi*, 28 ekim 2018, https://www.hurriyet.com.tr/gundem/ver-turkiye-yi-al-kuba-yi-21794988 (06.06.2022).

*"Yeni dönemde Türk dış politikası",* Uluslararası IV. Türk Dış Politikası Sempozyumu Tebliğleri, Ed. Osman Bahadır Dinçer, Habibe Özdal, Hacali Necefoğlu, USAK Yayınları, Ankara 2010.

"Letter From Prime Minister Karamanlis to President Eisenhower", Athens, January 17, 1958, https://history.state.gov/historicaldocuments/frus1958-60v10p1/d174 (06.06.2022).

"Memorandum of Telephone Conversation", Washington, June 4, 1964, https://history.state.gov/historicaldocuments/frus1964-68v16 (06.06.2022).

Dışişleri Bakanlığı Belleteni, 6 ocak, 1966, http://diad.mfa.gov.tr/diad/belleteni/1966-sayi-16-27.pdf (06.06.2022).

Dışişleri Bakanlığı Belleteni, S. 38, Kasım 1967, http://diad.mfa.gov.tr/diad/belleteni/1967-sayi-28-39.pdf (06.06.2022).

"Batı İttifakı Yıkılır", *Milliyet gazetesi*, 16 nisan, 1964, http://gazetearsivi.milliyet.com.tr/Arsiv/1964/04/16 (06.06.2022).